# MƏRSİYƏLƏR

## KİTABI

## GİRİŞ

*«Mərsiyələr»* Kitabı beş mərsiyədən ibarətdir. Miladdan əvvəl 586-cı ildə Yerusəlimin dağıdılıb əhalinin əsir aparılmasından sonra bu mərsiyələrin Yeremya peyğəmbər tərəfindən yazıldığı ehtimal olunur. Bu kitabın 1-4-cü fəslə qədər olan hissəsi akrostix şəklində yazılmışdır, yəni ayələrin sırası ibrani əlifbasının hərfləri ilə başlayır. Yalnız üçüncü fəsildə üç ayə eyni hərflə başlayır.

Bu kitab mərsiyə ruhunda yazılsa da, burada Allaha inam və gələcəyə ümid əhval-ruhiyyəsi də özünü göstərir. Bütün bu dəhşətli hadisələrə baxmayaraq, Yeremya peyğəmbər Allaha sonsuz dərəcədə etibar edib belə deyir:

*«Amma bunları yada salarkən*
*Məndə ümid yaranır.*
*Rəbbin məhəbbətinə görə məhv olmadıq,*
*Çünki mərhəməti tükənməzdir.*
*Hər səhər bunlar təzələnir,*
*Sənin sədaqətin böyükdür.*
*Öz-özümə deyirəm: "Rəbb mənim nəsibimdir",*
*Ona görə Rəbbə ümid bəsləyirəm» (3:21-24).*

Miladdan əvvəl 586-cı ildə İsraillilərin başına gələn milli fəlakətin xatirinə yəhudilər hər il tutduqları oruc günlərində ibadət zamanı *«Mərsiyələr»* Kitabından istifadə edirlər.

***Kitabın məzmunu:***

1:1-22 Yerusəlim dərdi
2:1-22 Yerusəlimin cəzası
3:1-66 Cəza və ümid
4:1-22 Dağılmış Yerusəlim
5:1-22 Mərhəmət duası

***Yerusəlim dərdi***

1 [1]Yerusəlim şəhəri necə də
boş qalıb,
Bir zaman insanlarla dolu idi,
İndi dul qadına bənzəyir –
Millətlər arasında ulu sayılan,
Ellər arasında mələkə olan,
Bu şəhər nökərçilik edir.

[2]Gecələr acı-acı ağlar,
Göz yaşları ilə yanağı islanar,
Məşuqlarının arasından
Ona təsəlli verən yoxdur.
Bütün dostları ona xəyanət etdi,
düşmən oldu.

[3]Yəhuda dərdə, ağır zillətə düşüb,
İndi sürgünə gedir.

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 969



O, millətlər arasında yaşayır,
O torpaqlarda rahatlıq tapmır,
Yəhuda bu iztiraba düşəndə,
Təqibçilər ona çatdılar.

4 Siona gedən yollar yas tutur,
Çünki bayramlarına gələn yoxdur,
Buranın bütün darvazaları
kimsəsiz qalıb,
Kahinləri ah-zar edir.
Bu şəhərin qızları əzab-əziyyət
çəkir,
Buranın aqibəti acıdır,

5 İndi düşmənlər bu şəhərin üstündə
hökmrandır,
Bu yağılar gör necə firavan
yaşayır.
Çox üsyankar olduqlarına görə
Rəbb onları bu zülmə saldı,
Övladları düşmən önündə əsir
aparıldı.

6 Sion qızının cah-calalı yox oldu,
Onların başçıları otlaqsız maral
kimi oldu,
Onlar təqib edənlərin qarşısından
Taqətsiz qaçırlar.

7 Yerusəlim sıxıntı içində avara
gəzərkən
Ötən günlərdə olan bütün sərvətini
xatırlayır,
Xalqı düşmənlərinə təslim olanda
köməyinə çatan yoxdur.
Düşmənləri ona baxır,
Yıxılmağına gülür.

8 Yerusəlim böyük günah işlətdi,
Ona görə özünü murdar etdi.
Yerusəlimə hörmət edənlərin
hər biri
İndi ona xor baxır,
Çünki onu çılpaq görürlər,
O da üzünü yana çevirib inləyir.

9 Ətəyində ləkələr qaldı,
Sonunu düşünməz oldu,
Ona görə qorxunc surətdə yıxıldı,
Ona təsəlli verən yoxdur,
Ya Rəbb, gör bu əzabımı,
Çünki düşmən zəfər çaldı.

10 Onun bütün sərvətini talamaq
üçün
Düşmən əlini uzatdı.
Göz önündəcə millətlər,
Camaatın arasına girməsini
qadağan etdiyin
Müqəddəs məkanına soxuldu.
11 Oranın bütün xalqı zarıyır,
çörək axtarır,
Canlarını taqətə gətirmək üçün
Sərvətlərinin əvəzinə azuqə alır.
«Ya Rəbb, indi bax, halımı gör,
Bir səfilə dönmüşəm».

12 Ey yoldan keçənlərin hamısı,
Bu iş sizin üçün boşdurmu?
Baxın dərdimə, bunun kimisi
varmı,
Mənim başıma gətirilən dərd
başqasında olarmı?
Rəbb qəzəbdən alovlananda
Bu dərdi başıma tökdü.

13 Yuxarıdan od göndərdi,
Sümüklərimədək bu odu yeritdi.
Ayaqlarım üçün tor qurdu,
Məni geri qaytardı.
Gün boyu məni yalqız qoydu,
taqətdən saldı.

14 Xudavənd günahlarımı mənə
boyunduruq etdi,
Əli ilə bir-birinə hördü,
Onları boynuma keçirtdi,
Taqətimi tükəndirdi.
Məni qarşısında dura bilmədiyim
İnsanlara təslim etdi.

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 970



15Məni müdafiə edən cəngavərlər
vardı,
Hamısı Xudavənd tərəfindən
atıldı.
Mənə qarşı bir ordu göndərdi,
Seçmə igidlərimi qırıb tapdalatdı.
Bakirə Yəhuda qızını üzümsıxanda
əzdi.

16Bunlar üçün ağlayıram,
Gözlərimdən yaş axır.
Təsəlli verən məndən uzaqdır,
Məni dirçəldən uzaqdır.
Övladlarım yalqız qalıb,
Çünki düşmən zəfər çalıb.

17Sion əl açıb,
Amma ona təsəlli verən yoxdur.
Rəbb Yaqub nəslinə qarşı bu
əmrini verib:
«Qoy qonşuları onun düşməni
olsun,
Çünki Yerusəlim onlar üçün
murdar əskiyə çevrilib».

18Rəbb adildir, mən isə əmrinə qarşı
çıxdım,
Ey bütün xalqlar, siz mənə qulaq
asın!
Mənim çəkdiyim bu dərdə baxın,
Bakirə qızlarım, igidlərim sürgünə
gedib.

19Müttəfiqlərimi çağırdım,
Lakin məni aldatdılar,
Kahinlərim, ağsaqqallarım cana
gəlmək üçün
Yemək axtardılar,
Amma şəhərin içindəcə canlarını
tapşırdılar.

20Ya Rəbb, bax dara düşmüşəm,
Canım əzabdan yanır.
Çox üsyankarlıq etmişəm,
Buna görə ürəyim üzülür.
Bayırdakı qılınc məni övladsız
qoyur,
Ölüm evimi içəridən bəzəyir.

21Necə ah-zar çəkdiyimi eşidiblər,
Amma mənə təsəlli verən yoxdur,
Düşmənlərim bu əziyyətimdən
xəbər tutdu,
Onlar başıma gələnlərə sevinir,
Elan etdiyin günü yetir!
Qoy onlar mənim vəziyyətimə
düşsün.

22Etdikləri pislikləri yada sal,
Üsyankarlığıma görə mənə etdiyini
onlara da et,
Çox ah-nalə çəkirəm,
Ürəyim taqətdən düşüb.

### *Yerusəlimin cəzası*

2 1Xudavənd Sion qızına
qəzəblənərkən
Onu hər tərəfdən qara bulud aldı.
İsrailin əzəmətini göydən yerə
tulladı,
Qəzəbləndiyi gün kətilini[a]
xatirindən çıxardı.

2Xudavənd aman vermədən
Yaqub nəslinin bütün məskənlərini
dağıtdı,
Qəzəbi ilə Yəhuda qızının
qalalarını yıxdı,
Padşahlığı, başçıları yerlə
yeksan etdi.

3Qızğın qəzəbi ilə İsrailin qüvvəsini
kökündən kəsdi,
Düşmən önündə onun üstündən
sağ əlini götürdü.
Sanki Yaqub nəslini hər tərəfdən
oda saldı
Göndərdiyi atəşlə yandırıb-yaxdı.

a **2:1** *Kətil* – burada *Əhd sandığı* ya da *Sion dağı* mənasında işlənir.

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 971



4Düşmən kimi kamanının yayını
dartdı,
Yağı kimi sağ əlini qaldırdı,
Gözə xoş görünənləri tamamilə
öldürdü.
Qəzəbini Sion qızının çadırına
alov kimi tökdü.

5Xudavənd İsraili uddu,
Onunla düşmən kimi rəftar etdi.
Bütün saraylarını yerlə yeksan etdi,
Qalalarını viran qoydu,
Yəhudanın fəryadını, fəğanını
daha da artırdı.

6Çardağını viranə bağlar tək qırıb
tökdü,
Görüş yerlərini xarabalığa çevirdi,
Rəbb Siona bayram və Şənbə
günlərini unutdurdu,
Qəzəbi ilə padşahını, kahinini atdı.

7Xudavənd qurbangahını rədd etdi,
Müqəddəs məkanını tərk etdi.
Saraylarının sədlərini düşmən əlinə
keçirtdi,
Onlar bayram günlərində olduğu
kimi
Rəbbin məbədində haray qopardı.

8Rəbb niyyət etdi ki,
Sion qızının divarlarını dağıtsın.
Ölçü ipini dartıb, dağıtmaq üçün
ondan əl çəkməyəcək.
Qala divarını, səddini, matəmə
bürüyüb,
Hamısı qüvvələrini itirib.

9Onun darvazalarını yerə batırdı,
Cəftələrini qırıb atdı,
Padşahlarını, başçılarını
Yad millətlərin arasına saldı,
Qanuna əməl edilmir,
Artıq peyğəmbərlərinə Rəbdən
görüntü gəlmir.

10Sion qızının ağsaqqalları susub-
dinmir,
Onlar toz-torpaq içində əyləşib,
Başlarına toz töküb, çul geyib,
Yerusəlimin bakirə qızları
başlarını yerə dikib.

11Ağlamaqdan gözlərimin nuru
gedir,
Canım əzabdan yanır.
Əziz xalqım qırıldığına görə
ürəyimdən qan axır.
Çünki şəhər meydanlarındakı
Körpələrin, uşaqların huşu
başından çıxır.

12Şəhər meydanlarında yaralılar
kimi huşunu itirirlər,
Ana qucağında can verirlər.
Analarından soruşurlar:
«Hanı çörək, hanı şərab?»

13Ey Yerusəlim qızı, sənə nə deyim?
Səni kimlə müqayisə edim?
Ey bakirə Sion qızı, səni kimə
bənzədim?
Bununla mən sənə təsəlli verə
bilim?
Çünki yaran dəniz qədər dərindir,
Sənə kim şəfa verə bilər?

14Sənin üçün görülən görüntülər
yalan oldu,
Peyğəmbərlərin səni aldatdı.
Firavanlığını sənə qaytarmaq üçün
Təqsirlərini üzə çıxartmadılar,
Amma bu peyğəmbərlər səni
azdırdı,
Sənin üçün yalandan görüntülər
gördü.

15Yoldan keçən bütün insanlar
Qarşında əl çalırlar,
Başlarını yelləyib səni fitə basırlar.
Yerusəlim qızına belə deyirlər:

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 972



«Bütün dünyanın gözəllik və sevinc
rəmzi olan şəhər budurmu?»

16Bütün düşmənlərin səni ələ salır,
Fitə basır, diş qıcıdır,
«Onu udduq,
Bu günün həsrətini çəkdik, axır ki
bunu gördük» deyirlər.

17Rəbb Öz iradəsini yerinə yetirdi,
Qədim zamanlarda əmr etdiyi sözü
həyata keçirtdi.
Səni viran qoydu, aman vermədi,
Düşmənlərini sənin halına
sevindirdi,
Yağılarını gücləndirdi.

18Xalq Xudavəndə ürəkdən
fəryad etdi,
Ey Sion qızının divarı!
Qoy gecə-gündüz sənin gözlərindən
sel kimi yaş axsın,
Dincəlmə, aç gözlərini,
yumulmasın.

19Qalx, gecə fəryad etməyə,
Gecə növbələri başlayarkən
Xudavəndin hüzurunda qəlbini
sular kimi açıb tök.
Əllərini Ona aç, övladlarının
sağ qalmasını dilə,
Onlar hər tin başında acından
huşunu itirir.

20Ya Rəbb, indi bax, xalqının halını
gör!
Kiminlə belə rəftar etmisən?
Analar uşaqlarını, əziz
balalarınımı yesin?
Kahinlər, peyğəmbərlər
Xudavəndin Müqəddəs
məkanındamı qətlə yetirilsin?
21Gənclər, qocalar toz-torpaqda,
küçələrdə yatır.
Bakirə qızlarım, igidlərim
qılıncdan keçirilir.
Qəzəbləndiyin gün onları qətlə
çatdırmısan,
Aman vermədən qırmısan.

22Qorxduqlarımı hər yandan
çağırmısan,
Elə bil bayrama dəvət etmisən.
Rəbbin qəzəb günündə
qaçıb-qurtulan olmadı,
Onların arasından sağ qalan
olmadı,
Sevə-sevə övlad böyütmüşdüm,
Onları düşmənim həlak etdi.

### *Cəza və ümid*

3 1Rəbbin qəzəb dəyənəyindən
Mən əzab çəkirəm,
2O məni apardı,
İşıqda deyil, qaranlıqda gəzdirdi.
3Bütün gün – dəfələrlə qaldırdığı əli
Mənə qarşıdır.

4Ətimi, dərimi çürütdü,
Sümüklərimi sındırdı.
5Məni əzabla, cəfa ilə sarıdı,
Mühasirəyə saldı.
6Çoxdan ölüb-gedənlər kimi
Məni zülmətdə yaşatdı.
7Ətrafımı hər tərəfdən hasara aldı,
Məni zəncirləyib, qaça bilmirəm.
8Fəryad edib mən imdad istəyərkən
O, duamın qarşısına sədd çəkdi.

9Yonma daşlarla yollarımı kəsdi,
Onları dolaşdırdı.

10Mənə ayı kimi pusqu düzəldir,
Gizlənib aslan kimi məni güdür.
11Yoldan sürükləyib məni parçaladı,
Çarəsiz hala saldı.
12Kamanının yayını çəkdi,
Məni Özü üçün bir hədəf etdi.

13Çəkib oxdanından ox atdı,

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 973



Böyrəyimə sapladı.
14 Gün boyu xalqımın gülüş hədəfinə
döndüm,
Məzhəkəli nəğmə ilə məni ələ
salırlar.
15 O, acı otlardan mənə doyunca
yedirtdi,
Yovşan suyunu içirtdi.

16 Dişlərimi çınqılla qırdı,
Kül içində məni diz çökdürtdü.
17 Salamatlıqdan canımı uzaq etdi,
Yaxşılığı unutdum.
18 Dedim: «Üzərimdən əzəmətim
getdi,
Rəbdən ümidim kəsildi».

19 Əzabımı və sərgərdanlığımı,
Acı yovşanı və zəhəri yada sal.
20 Daim onları xatırlayıram,
Ona görə köksümdən ürəyim
üzülür.
21 Amma bunları yada salarkən
Məndə ümid yaranır.

22 Rəbbin məhəbbətinə görə
məhv olmadıq,
Çünki mərhəməti tükənməzdir.
23 Hər səhər bunlar təzələnir,
Sənin sədaqətin böyükdür.
24 Öz-özümə deyirəm: «Rəbb mənim
nəsibimdir»,
Ona görə Rəbbə ümid bəsləyirəm.

25 Rəbb Ona güvənənlərə,
Onu axtaran könüllərə
xeyirxahdır.
26 Rəbbə ümid bəsləmək,
Sakitcə bizə qurtuluş verməsini
gözləmək nə yaxşıdır.
27 Yaxşı olar ki, insan
Boyunduruğunu gənc yaşından
daşısın.

28 Qoy susub tənha otursun,
Axı Rəbb boynuna boyunduruq
salıb.
29 Üzünü yerə sürtsün,
Bəlkə hələ ümid var.
30 İzin versin, qoy sifətinə vursunlar,
Qoy ona doyunca böhtan atsınlar.

31 Çünki Xudavənd əbədilik
Bizi Özündən kənar etməz.
32 Qəm-qüssə versə belə,
Bol məhəbbətinə görə rəhmə gələr.
33 Çünki ürəkdən istəyərək bəşər
övladlarına əzab verməz,
Heç kimi kədərləndirməz.

34 Dünyadakı bütün əsirlərin ayaq
altında əzilməsini,
35 Haqq-Taalanın hüzurunda insanın
Öz haqlarından məhrum olmasını,
36 İnsanın ədalətdən məhrum
olmasını
Xudavənd heç görmürmü?

37 Xudavənd əmr verməsə,
Kimin dediyi həyata keçər?
38 Həm xeyir, həm də şər,
Haqq-Taalanın əmri ilə gələr.
39 Öz günahının cəzasından
Sağ qalan insan niyə şikayətlənir?

40 Qoy yollarımıza diqqətlə baxaq,
Rəbbə yenidən üz tutaq.
41 Göylərdəki Allaha əllərimizi,
Həm də ürəklərimizi açaq.
42 Deyək: «Biz qanunsuzluq və
üsyankarlıq etdik,
Bunu bizə bağışlamadın».

43 Qəzəbə bürünmüsən, bizi təqib
etmisən,
Aman vermədən öldürmüsən.
44 Özünə buludlardan örtük çəkdin,
Onların arasından dua keçmir.
45 Xalqlar arasında
Bizi zibilə, tullantıya çevirmisən.

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 974



46Bütün düşmənlərimizin bizə qarşı
Ağızları açıldı.
47Dəhşət və çuxur,
Məhv və qırğın birlikdə başımıza
gəldi.
48Qırılan əziz xalqıma görə
Gözlərimdən sel kimi yaş axdı.

49Dinmədən, dayanmadan
Gözlərimdən yaş axacaq,
50Rəbb göylərdən aşağıya baxana
qədər,
Olanları görənə qədər.
51Şəhərimdəki hər qızın taleyini
görərkən
Ürəyimi kədər bürüyür.

52Nahaq yerə mənə düşmən olanlar
Məni quş tək ovladılar.
53Quyuya salıb məni öldürmək
istədilər,
Daşqalaq etdilər.
54Sular başımdan aşdı,
Dedim: «Ömrüm sona çatdı».

55Ya Rəbb, ismini
O quyunun dibindən səslədim.
56«Qulağını tıxama, fəryadımı dinlə»
deyərkən
Səsimi eşitdin.
57Səni çağıranda yanıma gəldin,
Mənə «qorxma» söylədin.

58Ey Xudavənd, mənim əməlimə
baxdın,
Həyatımı satın aldın.
59Ya Rəbb, başıma gətirdikləri şəri
gördün,
Bu iş barədə hökmünü ver.
60Mənə bəslədikləri kini,
Mənə qarşı qurulan fəndləri
gördün.

61Ya Rəbb, mənə etdikləri həqarəti
eşitdin,
Əleyhimə fənd qururlar.
62Əleyhdarlarımın pıçıltısını,
Gün boyu mənə qarşı mırıltısını
eşitdin.
63Onların oturuşuna-duruşuna
bax,
Onlara məzhəkə nəğməsi
olmuşam.

64Ya Rəbb, onların əllərinin
əməllərinə görə
Əvəzini verəcəksən.
65Onların qəlbini inadkar et,
Qoy lənətin onların üstünə gəlsin.
66Ya Rəbb, qəzəbinlə onları qov,
Səma altından məhv edib at!

***Dağılmış Yerusəlim***

4 1Qızıl necə də tutqunlaşdı,
Saf qızıl parıltıdan düşdü.
Müqəddəs daşlar
Hər küçə başına dağılmışlar.

2Sion övladları təraziyə qoyulanda
Saf qızıldan da qiymətli idi.
İndi isə onlar saxsı qablara,
Dulusçunun əl işinə bərabər
olublar.

3Çaqqallar belə, balalarına əmcək
verir,
Onları əmizdirir.
Əziz xalqım isə insafı atır,
Səhra dəvəquşularına oxşayır.

4Südəmər körpənin dili
Susuzluqdan damağına yapışır.
Uşaqlar yemək istəyir, verən
yoxdur.
5Ən ləziz yeməkləri yeyənlər
İndi küçələrdə taqətdən düşüblər.
Al rəngli paltar geyib-böyüyənlər
Zibillikdə yatırlar.

6Axı əziz xalqımın təqsiri

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 975



Sodomun günahını keçdi,
Bu şəhər əl toxunmadan
Bir andaca yerlə yeksan oldu.

7Yerusəlimin başçıları qardan da
təmiz idi,
Süddən də bəyaz idi,
Vücudları qıpqırmızı yaqut kimi
idi,
Zahirən göy yaquta bənzəyirdi.

8İndisə üzləri kömür kimi qaralıb,
Küçələrdə heç birini tanımaq
olmur,
Onlar cılızlaşaraq bir sümük,
bir də dəri qalıb,
Ağac kimi quruyub.

9Bu aclığın qurbanındansa
Qılınc qurbanı olan bəxtiyardır.
Zəminin məhsulundan məhrum
olmuşdular,
Əriyən canlarında can qalmayıb.

10Hətta ən qəlbiyumşaq qadınlar
Öz əlləri ilə balalarını bişirirdi.
Əziz xalqım qırılarkən
Balalarının ətini yeyirdi.

11Rəbb hiddətini boşaltdı,
Qızğın qəzəbini yağdırdı,
Sionda alovunu alışdırdı,
Onu təməlinədək yandırıb-yaxdı.

12Dünyada heç bir padşah
inanmazdı ki,
Yerusəlimin darvazalarından keçib
Yağılar və düşmənlər
Bu şəhəri zəbt edər.
13Bu iş şəhərdə salehlərin qanının
tökülməsi
Peyğəmbərlərin günahları,
kahinlərin təqsirləri üzündən
oldu,
14Kor kimi küçələrdə dolanırdılar,
Qanla murdar oldular,
Onların libaslarına belə,
Kimsə toxuna bilməz.

15İnsanlar onlara qışqırır:
«Ey murdarlar, rədd olun!
İtilin buradan, bizə dəyməyin,
rədd olun!»
Onlar qaçqın, sərgərdan
dolanarkən
Başqa millətlər deyir: «Bunlar
burada qalmasın!»

16Rəbb Özü onları pərən-pərən saldı,
Onlara yenidən baxmaz,
O daha kahinlərə hörmət etmir,
Ağsaqqallara xeyirxahlıq
göstərmir.

17Hər an boş yerə yardım
gözləməkdən
Gözlərimiz taqətdən düşdü,
Bizi qurtara bilməyən milləti
Hey gözlədik, gəlmədi.

18Ardımızca düşmən düşüb,
Küçələrdə gəzə bilmirik.
Sonumuz çatdı, günlərimiz bitdi,
Aqibətimiz sona yetdi.

19Bizi təqib edənlər
Göylərdəki qartallardan
sürətlidirlər,
Dağlarda ardımızca düşdülər,
Pusqu qurub səhrada gözlədilər.

20Rəbbin məsh etdiyi, həyatımızın
nəfəsi
Onların xəndəklərində yaxalandı,
Halbuki deyirdik:
«Onun kölgəsində
Millətlərin içində yaşayacağıq».

21Ey Us ölkəsində yaşayan Edom
xalqı,

**4:6** *Yar. 19:24* **4:10** *Qanun. 28:57; Yez. 5:10*

Lam Lat:Azeri Bible Latin 15.01.2009 11:31 Page 976



Sevin, fərəhlən!
Sən də bu kasadan içəcəksən,
Sərxoş olub, çılpaq qalacaqsan.

22Ey Sion qızı, təqsirinin cəzası sona
çatdı,
Rəbb səni bir daha sürgünə
göndərməyəcək,
Ey Edom xalqı, təqsirini cəzasına
çatdıracaq,
Günahlarını meydana çıxaracaq.

### *Mərhəmət duası*

5 1Ya Rəbb, başımıza gələni
yada sal
Gör bu xəcalətimizi, buna nəzər
sal.
2İrs torpağımız yadellilərin əlinə
keçib,
Evlərimiz əcnəbilərə verilib.
3Atalarımız öldü, yetim qaldıq,
Analarımız dul qaldı.
4Suyumuzu pulla alıb içirik,
Pulla odun almağa məcburuq.
5Bizi qovub başımızdan basırlar,
Yorulmuşuq, bizi rahat
qoymurlar.
6Doyunca çörək yemək üçün
Misirə, Aşşura əl açmışıq.
7Ata-babalarımız günah işlədərək
keçib-getdi,
Təqsirlərinin cəzası üstümüzə
yükləndi.
8Qullar bizə hökmran olub,
Bizi onların əlindən qurtaran
yoxdur.
9Çöldəki qılınca görə,
Canımız bahasına çörək
qazanırıq.
10Aclıq bizi yandırıb-yaxdığına görə
Dərimiz qaralıb, kürəyə bənzəyir.
11Sionda qadınlar,
Yəhuda şəhərlərindəki bakirə
qızlar zorlanır.
12Başçılar əllərindən asılıb,
Ağsaqqallar hörmətdən düşüb.
13Məcburiyyət qarşısında cavanlar
əl dəyirmanını çəkir,
Oğlanlar odun yükləri altında
səndələyir.
14Şəhər darvazasında ağsaqqallar
oturmur,
Gənclər çalğı alətlərində çalmır.
15Ürəyimizdən şadlıq çəkilib,
Oyunlarımız yasa çevrilib.
16Başımızın tacı düşüb,
Vay halımıza! Çünki günah
işlətmişik.
17Buna görə ürəklərimiz çəkilib,
Gözlərimiz qaralıb,
18Çünki Sion dağı viran qalıb,
Üstündə tülkülər gəzib-dolaşır.

19Sən isə, ya Rəbb, əbədi
hökmransan,
Nəsildən-nəslə qədər taxtında
oturacaqsan.
20Uzun zamandan bəri niyə bizi bu
qədər tərk etmisən?
Niyə bizi bu qədər uzun müddətə
tərk etmisən?
21Ya Rəbb, bizi Özünə qaytar,
Təzədən əvvəlki günlərimizə
qayıdaq!
22Yoxsa hüzurundan bizi tamamilə
atmısan,
Bizə qarşı hədsiz qəzəblənmisən?

**5:19** *Zəb. 102:12*